

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 44 (24.181)

*8 mart 2023-cü il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Azərbaycan Prezidenti İlham Əliyev Timor-Leste Prezidenti Jose Ramos Horta ilə görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 7-də Timor-Leste Demokratik Respublikasının Prezidenti Jose Ramos Horta ilə görüşüb.

Görüşdə çıxış edən Prezident **İlham Əliyev** dedi:

– Sizi bir daha salamlayıram. Səfərə gəldiyiniz üçün təşəkkür edirəm. Bu, həqiqətən də, tarixdə ilk dəfədir ki, Timor-Lestenin Prezidenti Azərbaycana səfər edir. Əminəm ki, bu, ölkələrimiz arasında dostluq əlaqələrinin, səmərəli əməkdaşlığın və tərəfdaşlığımızın uğurlu davamını təmin edəcək mühüm addımdır. Bununla yanaşı, Qoşulmama Hərəkatının bu yaxınlarda keçirilmiş Zirvə toplantısında ölkənizin yüksək səviyyədə təmsil olunması ilə bağlı minnətdarlığımı bildirmək istəyirəm. Bu toplantı olduqca uğurlu idi və üzv dövlətlər arasında həmrəyliyi bir daha nümayiş etdirdi.

Azərbaycanın sədrliyinə və bizim üzv dövlətlər arasında əməkdaşlığın gücləndirilməsi və onların maraqlarının müdafiəsinə yönəlmiş təşəbbüslərimizə verilən dəstəyə görə də minnətdarlıq bildirmək istərdim.

Ölkələrimiz bir-birindən uzaqda yerləşir, lakin hesab edirəm ki, bu, müxtəlif sahələrdə əməkdaşlığa mane olmamalıdır. Bir halda ki, siyasi müstəvidə əməkdaşlıq mövcuddur, biz digər sahələrdə imkanları nəzərdən keçirməliyik. Əlbəttə ki, Sizin Azərbaycana səfəriniz qarşılıqlı maraq doğuran geniş məsələlərin müzakirəsi üçün fürsət yaradır. Cənab Prezident, bir daha Azərbaycana xoş gəlmisiniz. Sizə Azərbaycanda xoş vaxt keçirməyi arzu edirəm.

***

Timor-Leste Prezidenti **Jose Ramos Horta** dedi:

– Zati-aliləri, mənimlə Azərbaycanda iştirak edəcəyim Forumla bağlı görüşdüyünüzə görə sağ olun. Mən əvvəllər bu Foruma dəvət edilmişdim, lakin müəyyən səbəblərdən səfərə gələ bilmədim. Bu dəfə isə, həqiqətən də, bu səfəri həyata keçirmək arzusundaydım. İstədim həm Forumda iştirak edim, həm də rəhbərliyinizlə tərəqqi və inkişafa nail olan və haqqında çox oxuduğum Azərbaycan ilə şəxsən tanış olum. Belə bir fürsətə görə təşəkkür edirəm.

***

Timor-Leste Demokratik Respublikasının Prezidenti Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin yüksək qiymətləndirildiyini dedi, Hərəkatın Bakıda təşkil edilən son Zirvə görüşünün uğurla keçirildiyini vurğuladı.

Prezident İlham Əliyev ölkəmizin Qoşulmama Hərəkatına sədrliyinə göstərdiyi dəstəyə görə Timor-Lestenin Prezidentinə minnətdarlığını bildirdi.

Görüşdə qaz, sərmayələr, gübrə istehsalı, təhsil sahələrində əməkdaşlıq məsələləri müzakirə olundu.

Jose Ramos Horta Azərbaycanın təhsil müəssisələrində ölkəsindən olan tələbələrə təqaüd ayrılması ilə bağlı imkanlara baxılması üçün dövlətimizin başçısından xahiş etdi.

Azərbaycanın təhsil potensialı haqqında məlumat verən Prezident İlham Əliyev xarici tələbələr, o cümlədən Qoşulmama Hərəkatına üzv dövlətlərdən olan tələbələr üçün təhsil təqaüdlərinin ayrıldığını qeyd edərək bu məsələyə də baxılacağını bildirdi.

## Prezident İlham Əliyev Çin Hökumətinin Avropa məsələləri üzrə xüsusi nümayəndəsini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 7-də Çin Hökumətinin Avropa məsələləri üzrə xüsusi nümayəndəsi Vu Honqbonu qəbul edib.

İlk növbədə, Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarını dövlətimizin başçısına çatdıran Vu Honqbo Azərbaycan Prezidenti ilə əvvəlki görüşlərini məmnunluqla xatırladı.

Qonaq bildirdi ki, Azərbaycan Prezidentinin güclü rəhbərliyi altında ölkəmizin iqtisadi və digər sahələrdə əldə etdiyi uğurlar onlarda böyük təəssürat hissi doğurur.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Si Cinpinə çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı özünün Çinə rəsmi səfərini, bu səfər zamanı və beynəlxalq tədbirlərdə Çin Xalq Respublikasının Sədri ilə görüşlərini xatırlayaraq bildirdi ki, Si Cinpinin Azərbaycan Prezidentini Çinin böyük dostu adlandırmasından böyük məmnunluq hissi duyur.

Vahid Çin siyasətini, Çinin ərazi bütövlüyü və suverenliyini daim dəstəklədiyini qeyd edən Prezident İlham Əliyev Azərbaycanın xarici siyasətində Çinlə əməkdaşlığın əsas prioritetlərdən biri olduğunu vurğuladı, əlaqələrimizin ildən-ilə güclənməsindən məmnunluğunu bildirdi və ölkələrimiz arasında əməkdaşlığın yalnız müxtəlif siyasi platformalarda deyil, eyni zamanda iqtisadi sahədə və "Bir kəmər, bir yol" çərçivəsində də genişləndiyini dedi. Dövlətimizin başçısı bu baxımdan Çindən Azərbaycan vasitəsilə qərb istiqamətində daşınan yüklərin həcminin artmasını bunun yaxşı nümunəsi kimi dəyərləndirdi.

Prezident İlham Əliyev COVID-19 pandemiyası zamanı Çin Xalq Respublikasının Sədrinə göndərdiyi məktubu xatırladaraq Çinin ölkəmizə vaksinlər ayırmasını və bunun nəticəsində Azərbaycanın dünyada vaksinasiyaya başlayan ilk ölkələrdən biri olduğunu xüsusilə qeyd etdi, bunu ölkələrimiz arasında dostluğun bariz nümunəsi kimi dəyərləndirdi, bu faktın Azərbaycan dövləti və xalqı tərəfindən çox yüksək qiymətləndirildiyini dedi.

Dövlətimizin başçısı Azərbaycanın bərpa olunan enerji potensialı barədə məlumat verdi. Çinin bu sahədə böyük texnoloji imkanlara malik olduğu qeyd edildi.

Söhbət zamanı Çin şirkətləri işğaldan azad edilmiş ərazilərimizdə aparılan bərpa və quruculuq işlərinə dəvət olundular.

Qonaq Çinin ölkəmizin ərazi bütövlüyünü və suverenliyini daim dəstəklədiyini qeyd etdi.



Vu Honqbonun Bakıda keçiriləcək növbəti Qlobal Forumda iştirakını yüksək qiymətləndirən dövlətimizin başçısı onun səfərinin əlaqələrimizin genişlənməsi işinə töhfə verəcəyinə əminliyini bildirdi.

Çin Hökumətinin Avropa məsələləri üzrə xüsusi nümayəndəsi Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin artıq dünya səviyyəsində tanınmış mərkəzlərdən biri olduğunu qeyd etdi, burada beynəlxalq sülh və təhlükəsizlik gündəliyində duran çox vacib müzakirələrin aparıldığını dedi və Mərkəzin gələcək fəaliyyətinə uğurlar arzuladı.

Görüşdə iqtisadi, humanitar və turizm sahələrində əməkdaşlığın daha da genişləndirilməsi barədə fikir mübadiləsi aparıldı, əlaqələrimizin inkişafı üçün böyük imkanların olduğu bildirildi, media, elm-tədqiqat mərkəzləri və insanlar arasında təmasların artırılmasının vacibliyi vurğulandı.

## Prezident İlham Əliyev Bolqarıstanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 7-də Bolqarıstanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ruslan Stoyanovun etimadnaməsini qəbul edib.

Səfir Ruslan Stoyanov etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Ölkələrimizin yaxın və strateji tərəfdaş olduğunu vurğulayan dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin bundan sonra da inkişaf edəcəyinə əminliyini bildirdi. Prezident İlham Əliyev yüksəksəviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətinə toxunaraq vurğuladı ki, dostluq əlaqələrini nümayiş etdirən bu səfərlər zamanı ikitərəfli gündəlikdə duran çox mühüm məsələlərlə bağlı qərarlar qəbul olunub.



Dövlətimizin başçısı hazırkı əməkdaşlığımızın əsas mövzularından birinin enerji sahəsinə aid olduğunu deyərək, Cənub Qaz Dəhlizi layihəsinin önəminə toxundu, enerji təhlükəsizliyinin təmin edilməsi məsələsində ölkələrimizin uzun illər bundan sonra da yaxın tərəfdaş olacaqlarına ümidvarlığını bildirdi. Prezident İlham Əliyev, eyni zamanda birgə layihələrin həyata keçirilməsinin Bolqarıstana Azərbaycan qazı üçün tranzit ölkəyə çevrilmək imkanı yaratdığını qeyd etdi.

Azərbaycan Prezidenti enerji sahəsi ilə yanaşı, digər sahələrdə də əməkdaşlığın inkişafı üçün potensialın olduğunu bildirdi, ticarət dövriyyəsinin artırılması üçün səylərin göstərilməsinin vacibliyini vurğuladı.

Ölkələrimiz arasında qarşılıqlı siyasi fəaliyyətin yaxşı səviyyədə olduğunu bildirən dövlətimizin başçısı Azərbaycan-Avropa İttifaqı və Azərbaycan-NATO əməkdaşlığında Bolqarıstanın rolunu qeyd etdi.

Azərbaycan Prezidenti səfirə fəaliyyətində uğurlar arzuladı.

Ruslan Stoyanov, ilk növbədə, Bolqarıstan Prezidenti Rumen Radevin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Rumen Radevə çatdırmağı xahiş etdi.

Azərbaycanın Bolqarıstan üçün strateji tərəfdaş ölkə olduğunu vurğulayan səfir dövlətlərimiz arasında mövcud olan qarşılıqlı etimadın və yüksəksəviyyəli görüşlərin strateji tərəfdaşlığımızın göstəricisi olduğunu dedi. Ruslan Stoyanov vurğuladı ki, Azərbaycan-Bolqarıstan münasibətləri yalnız strateji xarakter daşımır, onlar həm də dost münasibətləridir. Səfir Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun istismara verilməsinin əhəmiyyətinə də toxundu.

**AZƏRTAC**

## Prezident İlham Əliyev 8 Mart – Beynəlxalq Qadınlar Günü ilə bağlı paylaşım edib




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sosial şəbəkə hesablarında 8 Mart – Beynəlxalq Qadınlar Günü ilə bağlı paylaşım edib.

Paylaşımda “8 Mart – Beynəlxalq Qadınlar Günü” sözləri yer alıb.

**AZƏRTAC**

## Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbir keçirilmişdir

Naxçıvan Muxtar Respublikası Balıqçılıq Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətində Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbir keçirilmişdir. Tədbirdə cəmiyyətin sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Nazim Məmmədov “Müstəqil Azərbaycanın memarı” mövzusunda çıxış etmişdir. Qeyd olunmuşdur ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2023-cü ilin Azərbaycan Respublikasında “Heydər Əliyev İli” elan etməsi haqqında 29 sentyabr 2022-ci il tarixli Sərəncam imzalaması bu dahi şəxsiyyətin dünya tarixindəki yeri və mövqeyinə, müstəqil dövlətimiz və xalqımız qarşısındakı tarixi xidmətlərinə dövlət səviyyəsində verilmiş böyük qiymətdir. Müstəsna xidmətləri ilə əbədilik qazanan Ümummilli Lider Heydər Əliyevin mənalı həyat yolu, zəngin və çoxşaxəli irsi tükənməz ibrət məktəbidir.

Bildirilmişdir ki, Ümummilli Lider həmişə müstəqil Azərbaycan dövləti ideyasını milli ideya kimi inkişaf etdirmiş, istiqlaliyyətimizin möhkəmləndirilməsi işinə xidmət etmişdir. Ümummilli Lider elmi prinsiplərə və zəngin intellektual potensiala əsaslanan mükəmməl bir dövlətçilik konsepsiyası yaratmış, dövlət idarəçiliyi sahəsində zəngin elmi-nəzəri və praktiki irs qoymuşdur. Onun dövlətçilik ideyalarının elmi-nəzəri əsasları təkcə bu gün üçün deyil, gələcək üçün də əhəmiyyətlidir. Bu gün Azərbaycan Ulu Öndər Heydər Əliyev yolu ilə irəliləyir və inkişaf edir.

Vurğulanmışdır ki, bu gün hər bir azərbaycanlı fərəh hissi keçirir ki, dövlətimizin idarəçilik sükanı arxasında Ulu Öndərin layiqli davamçısı Prezident cənab İlham Əliyev dayanır. İnanırıq ki, dövlətimiz Ümummilli Liderimiz Heydər Əliyev dühasından bəhrələnən, onun siyasi kursunun ən layiqli davamçısı olan ölkə Prezidenti cənab İlham Əliyevin dövlətçilik bacarığı və rəhbərlik qabiliyyəti sayəsində ölkəmiz daha da inkişaf edəcəkdir.

Sonra cəmiyyətin əməkdaşlarından Kazım Gözəlov və Hüseyn Həsənov mövzu ətrafında çıxış etmişlər.

**Xəbərlər şöbəsi**

## Naxçıvanda 8 Mart – Beynəlxalq Qadınlar Günü qeyd edilib



Fevralın 7-də Heydər Əliyev Sarayında Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş, 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə “Qadınlar dövlətimizin, dövlətçiliyimizin, müstəqilliyimizin, bu günümüzün, gələcəyimizin dayağıdır” mövzusunda tədbir keçirilib.

Muxtar respublikanın ictimai-siyasi və mədəni həyatında fəal iştirak edən, dövlət idarələrində mühüm vəzifələr tutan qadınlar əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində əzəmətlə ucalan abidəsini ziyarət edərək abidənin önünə tər qərənfil düzüblər. Heydər Əliyev Muzeyini ziyarət edən qadınlara ölkəmizdə dövlət qadın siyasətinin əsas prinsiplərini müəyyənləşdirən Ulu Öndərin həyatı və fəaliyyəti haqqında ətraflı məlumat verilib.

Tədbir iştirakçıları Heydər Əliyev Sarayının foyesində muxtar respublika qadınlarının əl işlərindən ibarət sərgi ilə tanış olublar.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov bildirib ki, Azərbaycan qadını tarixboyu cəmiyyətin aparıcı qüvvəsi kimi xalqımızın ictimai-siyasi həyatında fəal iştirak edib, milli dəyərlərimizin, ana dilimizin, mədəniyyətimizin və mənəviyyatımızın ən etibarlı dayağı olub. Bu gün də qadınlarımız Azərbaycanın inkişafına öz dəyərli töhfələrini verməklə beynəlxalq qadın hərəkatının fəal iştirakçılarıdır.

Qeyd edilib ki, düşmənlə mübarizədə övladını, həyat yoldaşını Vətən üçün şəhid verən qadınlarımızın izzətli, vüqarlı duruşu bu gün bütün dünyaya dərs olub. Onlar mərdlik və mətanət nümayiş etdirərək yurdumuzun hər qarışını canından əziz bilən bir nəsil yetişdiriblər. Vətənimiz üçün layiqli övladlar böyüdən əsgər analarına, xanımlarına, bacılarına ən xoş arzularını çatdıran icra başçısı əminliyini bildirib ki, dövlətimizin qayğısını daim öz üzərində hiss edən qadınlarımız bundan sonra da ölkəmizin inkişafı, ailə dəyərlərimizin yaşadılması, gənc nəslin Vətənə məhəbbət və Azərbaycançılıq ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasında səy göstərəcəkdir.








Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova qeyd edib ki, Ümummilli Lider ölkəmizə rəhbərliyinin hər iki dövründə qadın hərəkatının təşəkkül tapmasını və həyata keçirilməsini dövlətçiliyin prioritet istiqaməti olub. Azərbaycan Respublikasında qadın hüquqları ilə əlaqədar möhkəm, dayanıqlı hüquqi baza yaradılıb, ölkəmiz müvafiq sahə ilə bağlı beynəlxalq konvensiyalara qoşulub. Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən hazırda müstəqil ölkəmizdə Ümummilli Liderimizin müəyyənləşdirdiyi dövlət qadın və gender siyasəti uğurla davam və inkişaf etdirilir. Ölkəmizdə Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaranması, həmçinin müvafiq sahədə qəbul edilən qanunvericilik aktları ölkənin siyasi, sosial, iqtisadi, mədəni həyatında qadınların rolunu artırıb. Hazırda qadınlarımız arasında görkəmli dövlət, elm, mədəniyyət və ictimai-siyasi xadimlər vardır. Azərbaycan Respublikasının birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva öz geniş fəaliyyəti ilə beynəlxalq aləmdə Azərbaycan qadınının nüfuzunu daha da yüksəklərə qaldırır.

Vurğulanıb ki, Naxçıvan qadınları muxtar respublikanın sosial-iqtisadi, mədəni, ictimai həyatında fəal iştirak edirlər. Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən icra olunan layihələr çərçivəsində aztəminatlı və sağlamlıq imkanları məhdud olan 192 qadına sərmayə kapitalı verilib, maliyyə dəstəyi göstərilib. Hazırda həmin qadınlar təsərrüfat sahəsində, eləcədə sahibkar kimi öz fəaliyyətlərini qurub və müvafiq sahədən gəlir əldə edərək onu daha da artırıblar. Ötən il 389 ailə özünüməşğulluq proqramına cəlb edilib ki, bunun da 122-si qadındır. Muxtar respublikada qadınların fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Belə ki, 185 qadın Azərbaycan Respublikasının, 188 qadın Naxçıvan Muxtar Respublikasının fəxri adlarına layiq görülüb, 171 qadın isə orden, medal və nişanlarla təltif olunub. Bütün bu göstərdiyi diqqət və qayğıya görə muxtar respublika qadınları adından Prezident cənab İlham Əliyevə dərin minnətdarlığımızı bildiririk.

Şəhid baş leytenant Raqib Hüseynovun anası Rəna Hüseynova şəhid ailələrinə göstərilən diqqətə görə minnətdarlıq edib. Naxçıvan Dövlət Universitetinin tələbəsi, Prezident təqaüdçüsü Turac Mehdiyeva dövlətin təhsilə göstərdiyi qayğıdan, qadınlar üçün yaradılan geniş imkanlardan danışıb.

Çıxış edənlər şəhid və qazi anaları, bacıları və yoldaşları başda olmaqla bütün qadınları təbrik edib, onlara cansağlığı, ailə səadəti, xoşbəxtlik arzu ediblər.

Sonra bir qrup qadın Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən müxtəlif nominasiyalar üzrə mükafatlandırılıb.

Naxçıvan Televiziyasının hazırladığı “Azərbaycan qadını – keçmişimiz və bu günümüz” sənədli filminə baxış olub.

Naxçıvan Dövlət Filarmoniyasının birləşmiş orkestrləri, Naxçıvan şəhər uşaq, musiqi, incəsənət məktəbi, Naxçıvan şəhər 11 nömrəli körpələr evi və uşaq bağçasının rəqs qrupunun hazırladığı kompozisiya, mahnı və rəqs nömrələri tədbirə xoş əhvali-ruhiyyə qatıb.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

* * *

Naxçıvan Dövlət Universitetində keçirilən tədbirdən öncə universitetin İncəsənət fakültəsində tələbələrin əl işlərindən ibarət sərgiyə baxış olub. Ali təhsil ocağının rektoru Elbrus İsayev müstəqillik illərində ölkəmizdə həyata keçirilən dövlət qadın siyasətindən, qadınların universitet elmi-ictimai mühitindəki rolundan danışıb. Rektor əlamətdar gün münasibətilə universitetin qadın əməkdaşlarını təbrik edib və işlərində uğurlar arzulayıb.

Tədbir çıxışlarla və bədii hissə ilə davam edib. Sonda qadınlara hədiyyələr təqdim edilib.

***

“Naxçıvan” Universitetində keçirilən tədbirdə universitetin rektoru, dosent Anar Kazımov universitetin qadın əməkdaşları və tələbələrinə bayram təbrikini çatdırıb. Sonra çıxışlar olub, tədbir konsert proqramı ilə davam edib.

***

Naxçıvan Müəllimlər İnstitutunun rektoru Azad Novruzov 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə keçirilən tədbirdə qadınları bayram münasibətilə təbrik edib, Azərbaycan qadınının ictimai-siyasi həyatdakı rolundan danışıb. Çıxışlardan sonra tələbələrin əl işlərindən ibarət sərgiyə, Tələbə-Gənclər Təşkilatının təşkilatçılığı və institut əməkdaşlarının iştirakı ilə hazırlanan təbrik videoçarxına baxış olub. Tədbir bədii hissə ilə yekunlaşıb.

* * *

8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə muxtar respublikanın rayonlarında da tədbirlər keçirilib. Tədbirlərdə rayon icra hakimiyyətlərinin başçıları qadınları əlamətdar bayram münasibətilə təbrik edərək bildiriblər ki, ölkəmizdə olduğu kimi, muxtar respublikamızda qadınlar hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Onlar muxtar respublikanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında fəal iştirak edir, bölgənin hərtərəfli inkişafına layiqli töhfələrini verir, qadınlarımızın əməyi dövlətimiz tərəfindən layiqincə qiymətləndirilir.






Belə ki, son illərdə Şərur rayonunda da 50-dən çox qadın Əməkdar müəllim, Əməkdar həkim adları ilə təltif olunub. “Tərəqqi” medalı, “Rəşadətli əməyə görə” nişanı, yüksək dövlət mükafatlarına layiq görülüb.

Babək rayonunda hazırda rayonun təhsil sahəsində çalışan 8 qadın “Azərbaycan Respublikasının Əməkdar müəllimi”, 11 qadın “Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi” fəxri adları, 6 qadın isə “Tərəqqi” medalı ilə təltif olunub. Səhiyyə sahəsində 3 qadın “Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi” fəxri adına, 1 qadın isə “Azərbaycan Respublikasının Əməkdar tibb bacısı” adına layiq görülüb. Eyni zamanda 4 qadın deputat kimi ictimai-siyasi fəaliyyətlə məşğuldur.

Ordubad rayonunda da qadınlarımız bütün sahələrdə fəal rol oynayırlar. Rayon əhalisinin 50 faizi qadındır. Rayonda işləyən qadınların fəaliyyəti dövlətimiz tərəfindən hər zaman yüksək qiymətləndirilib. Son illər rayon qadınlarından 36 nəfəri Azərbaycan Respublikasının fəxri adlarına və mükafatlarına layiq görülüb, medal və nişanlarla təltif ediliblər.

Bu gün Culfa rayonunun təhsil, səhiyyə, mədəniyyət və digər sahələrində çalışan qadınlar bilik və bacarıqları, işgüzarlıqları və ictimai-mədəni həyatdakı fəaliyyətləri ilə hər zaman seçilirlər. Son illər rayonun fəal qadınlarının aldıqları dövlət mükafatları, fəxri adlar bunu deməyə əsas verir.

Kəngərli rayonunda da qadınlar ictimai-mədəni həyatdakı fəallıqları ilə seçilir. Hazırda rayon üzrə təhsil sahəsində 531, mədəniyyət sahəsində 91, səhiyyə sahəsində 134 qadın çalışır. 32 qadın dövlət qulluqçusudur. Dövlət müəssisələrində çalışan 1836 nəfərdən 872-si qadındır.

Muxtar respublikada da qadınların fəaliyyətinin dövlətimiz tərəfindən yüksək qiymətləndirilməsini Şahbuz rayonunun timsalında da aydın görmək olar. Belə ki, rayon qadınlarından 8-i “Əməkdar müəllim”, 1-i “Əməkdar həkim”, 1-i “Əməkdar jurnalist”, 1-i “Əməkdar tibb işçisi”, 1-i “Əməkdar artist” fəxri adlarına layiq görülüb. Həmçinin respublikamızın inkişafındakı xidmətlərinə görə 6 nəfər “Tərəqqi” medalı və 2 nəfər “Rəşadətli əməyə görə” nişanı ilə təltif edilib.

Sədərək rayonunun idarə və təşkilatlarında müxtəlif sahələrdə 100-dən artıq qadın çalışır. Onların uğurlarının təməlində isə məhz dövlət qayğısı dayanır. Qadınlarımız bundan sonra da muxtar respublikamızın inkişafı naminə səylə çalışacaq, səmərəli fəaliyyətlərini davam etdirəcəklər.

Tədbirlərin sonunda ictimai-siyasi həyatında fəallıq göstərən qadınlar mükafatlandırılıb, şəhid analarına, səmərəli fəaliyyətləri ilə fərqlənən qadınlara hədiyyələr təqdim olunub. Muxtar respublikamızın rayonlarında keçirilən bayram tədbirləri musiqi kollektivlərinin çıxışları ilə davam etdirilib.

**Xəbərlər şöbəsi**

*O, sözün əsl mənasında, peşəkardır. Təkcə ona görə yox ki, peşəsinin gözəl bilicisidir, həm də ona görə ki, yüksək vətənpərvərliyi və insani keyfiyyətləri ilə bu peşəkarlığı tamlaşdıra bilib. Həyatda ən böyük təcrübəsini 1990-1993-cü illərdə Ümummilli Lider Heydər Əliyevin səlahiyyətli hərbi nümayəndəsi olaraq qazanıb. Həmin dövrdə Naxçıvanın müdafiəsinin təşkilində çox mühüm əməliyyatların dəqiq və uğurla həyata keçirilməsində böyük rol oynayıb. Ulu Öndərin rəhbərliyi və nəzarəti altında görülən bu işlər isə Naxçıvanın ən yeni tarixinə qızıl hərflərlə həkk olunub, bununla həm də Naxçıvanın müstəqillik tarixinin səhifələri yazılıb. Ümummilli Liderin anadan olmasının 100 illik yubileyini qeyd etdiyimiz "Heydər Əliyev İli"ndə "Şərq qapısı" qəzetində dərc olunan "Xüsusi dövlət əhəmiyyətli tapşırıq" adlı silsilə yazılar da elə bu səhifələrdən bəhs edir.*

✍ **Səbuhi HƏSƏNOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

*2023-cü il "Heydər Əliyev İli"dir*

# Xüsusi dövlət əhəmiyyətli tapşırıq


Нахчыван Мухтар Республикасы Али Мәҹлисинин
ГӘРАРЫ
ПОСТАНОВЛЕНИЕ
Верховного Меджлиса Нахичеванской Автономной Республики





XX əsrin əvvəli və sonu tariximizin səhifələrində qızıl hərflərlə qan yaddaşımıza yazılmışdır. Şərqdə ilk Cümhuriyyət Azərbaycanda qurulmuş, lakin təəssüf ki, çox qısa ömür sürmüş, cəmi 23 ay fəaliyyət göstərə bilmişdir. İllər keçsə də, ötən əsrin sonunda Azərbaycan xalqı müstəqillik bayrağını yenidən qaldırmış, oğulları Vətənin istiqlaliyyəti uğrunda canlarını fəda etmişdilər. Hər dəfə düşmənlərimiz fürsətdən istifadə edərək torpaqlarımızın bir qismini, sonuncu dəfə isə 20 faizini işğal etmişdi. Xalqımız dəfələrlə soyqırımına məruz qalmışdır. Müstəqilliyimiz çox ağır və məşəqqətli sınaqlardan keçmiş, Vətən övladlarının qanı bahasına qazanılmışdır.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan doğma Naxçıvanımız da bu hadisələrdən kənarda qalmamışdır. Azərbaycanın müstəqilliyinin rəmzi olan dövlət atributları Ümummilli Liderimiz Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan Muxtar Respublikası Ali Məclisində qəbul edilmişdir. Beləliklə, Azərbaycanın müstəqilliyinin əsasları Naxçıvanda qoyulmuşdur. Ulu Öndər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə muxtar respublikanın erməni təcavüzündən 32 il bundan əvvəl qorunması ilə bağlı həyata keçirilmiş Xüsusi Dövlət Əhəmiyyətli Tapşırıq da gerçək hadisələr, rəsmi sənədlərin dili ilə məqalədə ilk dəfə əks olunur:

... Görkəmli dövlət xadimi Heydər Əliyev çox qayğılı görünürdü. Kabineti soyuq idi. Mənimlə səmimi görüşüb oturmaq üçün yer göstərdi. Ümumi söhbətdən sonra mənə məlum oldu ki, 1986-cı ildə xüsusi təyinatlı (QRU) zabit kimi, Əfqanıstana göndərilmək üçün seçildiyimdən də xəbəri var. Naxçıvanda olan ağır iqtisadi durumdan və erməni təhlükəsindən ətraflı danışaraq əsas mətləbə keçdi. Naxçıvan Muxtar Respublikasının ərazi bütövlüyünü, əhalisinin təhlükəsizliyini təmin etmək üçün mənə xüsusi dövlət əhəmiyyətli tapşırıq verəcəyini, eyni zamanda özünün hərbi səlahiyyətli nümayəndəsi elan etdiyini bildirdi...

***

Naxçıvan Sovet İttifaqının tərkibindən çıxan ilk muxtar qurum idi. Müstəqillik yolunda ilk şəhidlərimizi də burada vermişdik. Düşmən daha çox şey istəyirdi. Ərzaq qıtlığı hiss olunurdu, çörək üçün növbələr yaranmışdı. Ən qəribəsi isə o idi ki, çox ucuz qiymətlərə şəhərə Avropada qeyri-standart şəkildə istehsal edilən Rusiya araqları daxil olurdu. Ulu Öndərin rəhbərliyi ilə gənclərimizin mənəvi-psixoloji tərbiyəsinə, fiziki sağlamlığına mənfi təsir göstərə biləcək yad təsirlərdən, zərərli vərdişlərdən qorunmağa nail olundu. Dahi rəhbərin səyləri nəticəsində qısa zaman ərzində İran İslam Respublikası ilə gömrük keçid məntəqələri açıldı. Ən mühümü isə Türkiyə ilə Naxçıvan arasında "Ümid" körpüsünün inşası ilə bağlı qardaş ölkə ilə razılaşma əldə edildi. Körpüdə tikinti işləri gedərkən mühüm bir əməliyyat xəbəri almışdıq. Təxribatçılar tərəfindən körpünün partladılması barədə gizli məlumat daxil olmuşdu və bunun qarşısı necə olur-olsun, alınmalı idi. Keçirilmiş əməliyyat tədbiri nəticəsində əllərində partlayıcı qurğu olan bir erməni və bir rus təxribatçı ələ keçirildi. Bir müddət sonra Ali Məclisin Sədri Heydər Əliyev İrəvanda əsirlikdə olan 16 yaşlı Vüqar adlı gənclə həmin rus zabitinin dəyişdirilməsi tapşırığını verdi. Vüqarı əsirlikdən azad etdikdən sonra onunla söhbətimiz zamanı dedi ki, Mingəçevirdə yaşayır. Gəncəyə dayısıgilə qonaq gəlib, oradan isə Gürcüstana gedibmiş. Məqsədi Türkiyəyə getmək imiş. Sərhəddə ruslar onu saxlayıb, sonra ermənilərə satıbmışlar. Vüqarın söhbətindən məlum oldu ki, dayısı dostu ilə birlikdə Qarabağda gedən döyüşlərdə iştirak edirlər.

***

Muxtar respublika əks-kəşfiyyatının rəisi kimi onsuz da işlərim çox idi. Ulu Öndərin göstərişi ilə 1991-ci ildə DTK-nın fəaliyyəti ilk dəfə olaraq Naxçıvanda dayandırılmışdı. Naxçıvanda dövlət təhlükəsizliyi ilə bağlı bütün məsələləri bizə həvalə etmişdi. Yeni təlimata görə mən birbaşa dahi şəxsiyyətin özü ilə işləməyə başlamışdım. Hər hansı bir ciddi məsələ üçün nə vaxt lazım olsa, onunla görüşməyimə şərait yaratmışdı. İlk sözü – ermənilər hücum edərsə, nəyin bahasına olursa-olsun, onların qarşısını almalıyıq olmuşdu. Ermənilərin xəyanətkarlığı dünyaca tanınmış dövlət, siyasət adamı olan bu böyük insanı çox məyus etmişdi, axı vaxtilə onlar üçün hansı yaxşılıqları etməmişdi? Qarşıda bizi böyük bir imtahan gözləyirdi...

***

Azərbaycanda gedən milli azadlıq hərəkatı öz bəhrəsini vermişdi. Xalqımız müstəqilliyə qovuşmuşdu. Müstəqil dövlətimizin atributları isə ilk dəfə olaraq dahi Heydər Əliyevin rəhbərliyi altında Naxçıvanda qəbul edilmişdi. O cümlədən müstəqilliyimizi, ərazi bütövlüyümüzü qorumaq üçün Dövlət Milli Müdafiə Komitəsinin yaradılması ilə bağlı xüsusi qərar xalqımızda milli qürur hissi yaratmışdı. İlk milli ordu hissəsi olan Naxçıvan Dövlət Müdafiə Komitəsi qısa zamanda səfərbərlik elan edərək sıralarını qəhrəman övladlar ilə genişləndirdi. Buraya, hətta Cənubi Azərbaycandan, qardaş Türkiyədən gələn vətənpərvərlər də daxil idi. Məlum səbəblərdən bu qəhrəmanların adların çəkməsəm də, onlar hər zaman qəlbimizdədir. Tarix təkrar olunurdu. Türkiyənin istiqlal Savaşında Baş Komutan Mustafa Kamal Atatürkün rəhbərliyi altında 57 və 22-ci alaylarda Azərbaycandan gedən könüllü əsgər və zabitlər döyüşmüşdülər. İndi də qardaşlarımız könüllü olaraq bizə köməyə gəlmişdilər. Azərbaycan xalqı Nuri Paşanı, Ənvər Paşanı, Kazım Qarabəkir Paşanı bu gün də böyük sevgi ilə qəlbində yaşadır. Azərbaycanda hər yerdə olduğu kimi, Naxçıvanda da türk şəhidlərinə böyük ehtiram var. Məzarları daim ziyarət olunur, ruhlarına dualar oxunur.

***

Dövlət Milli Müdafiə Komitəsinin komandiri, yaxın dostum, Naxçıvanın qəhrəman oğlu Elman Abbasov oldu. Bu o zaman idi ki, Bakıda respublika prezidenti Vətənin təhlükədə olduğu bir vaxtda onu düşməndən müdafiə edə biləcək milli ordu yaratmaq əvəzinə, özünü qorumaq üçün prezident qvardiyası yaratmaq istəyirdi. Bunun üçün Milli Məclisdə debatlar aparılırdı. Bakı və digər rayonlardan olan çağırışçılar Rusiyaya, keçmiş sovetlər birliyinin respublikalarına hərbi xidmətə göndərilirdilər. Naxçıvanda isə çağırışçılar ilk milli ordumuzda – Naxçıvan Dövlət Milli Müdafiə Komitəsində həqiqi xidmət keçərək Naxçıvanın ərazi bütövlüyünü qoruyurdular. Burada, eyni zamanda sovet ordusuna məxsus hərbi diviziya və Sərhəd Dəstəsi fəaliyyət göstərirdi. Rus general və zabitləri Naxçıvanda Ulu Öndər tərəfindən başladılan milli hərbi ordu quruculuğuna hər vəchlə maneə olmaq istəyir, deyirdilər ki, siz ordu yarada bilməzsiniz. Onlar bizi daim qıcıqlandırır, gecələr milli hərbi formalarımızı geyinərək avtomat silahlardan atəş açmaqla təxribat törədirdilər. Təxribatı siz ruslar törədirsiniz dedikdə isə bunu inkar edirdilər. Ulu Öndər Heydər Əliyevə söz verdim ki, qısa vaxtda diviziya komandiri, general Slaboşeviç qarşınızda diz çökəcək, təxribatların qarşısı alınacaq. Apardığım əməliyyat tədbirləri nəticəsində hər üç alayda xidmət edən əsgər və zabitlərdən könüllü şəkildə aldığım 30-a yaxın izahatı Ulu Öndərimizə təqdim etdim. İzahatlarda konkret yazılmışdı ki, alay komandirləri bizi məcbur edirlər ki, təxribat törədək. Rus generalı bu izahatları görən zaman dili topuq vurmuş, deməyə söz tapmamış, dahi siyasətçi Heydər Əliyevdən üzr istəyərək bu cür halların bir daha təkrar olunmayacağına söz vermişdi. Əsas məsələ isə hələ ki, həll edilməmiş qalırdı. Bu, milli ordumuzun silaha, sursata, ağır texnikaya olan ehtiyacını ödəmək idi.

Ruslar təxribatlarından əl çəkmək istəmirdilər. İndi də Sərhəd Dəstəsinin zabitləri fəaliyyətə keçmişdilər. Müdafiə Komitəsinin sədri Elman Abbasov məni yanına dəvət etdi. Bildirdi ki, Ordubadda ruslar silah gücünə 4 əsgərimizi əsir götürərək 3 gündür, Naxçıvan Sərhəd Dəstəsində saxlayırlar, buraxmaq istəmirlər, onları azad etmək lazımdır. Baş leytenant paqonlarını çiynimə taxıb Sərhəd Dəstəsinə gəldim. O zaman Sərhəd Qoşunları DTK-ya bağlı qurum idi. Növbətçiyə: – Rabitə bölüyünün komandiriyəm, polkovnik Jukovla görüşmək istəyirəm, – dedim. Planım baş tutmuşdu. Bir neçə dəqiqədən sonra Jukov məni qəbul etdi. Qurduğum dialoq ona çox təsir etmişdi. Yarım saatlıq görüşdən sonra qərargah rəisini və əlavə 3 nəfər podpolkovnik rütbəli zabiti yanına çağırdı. Həmin zabitlərdən biri Naxçıvandan idi. Mən onu tanıyırdım, o isə yox. Təxminən, bir saat söhbətdən sonra əsgərlərimizlə birgə iş yerimə qayıtdım. Valideynlərinin sevincdən gözləri yaşarmışdı.

Bu hadisədən bir neçə gün sonra məlumat aldım ki, Naxçıvan Muxtar Respublikasının baş prokuroru Hüseyn Hüseynova qarşı təxribat törədiləcək. İşin çoxluğundan o, idarədə gecələyirdi. Təxribatçılar həmin gün otağın açarını oğurlamışdılar. Açarı onlardan alıb müvafiq söhbətdən sonra prokurorluğa gəldim. Prokurorun yanında bir nəfər də var idi. Bu Sərhəd Dəstəsində işləyən zabit Cahangir Qulamov idi. O, Hüseyn Hüseynova mənim ruslar tərəfindən əsir götürülmüş əsgərlərimizi Jukovdan necə aldığımı söylədi. Cahangir müəllim sonralar Naxçıvan Sərhəd Dəstəsinin ilk komandirlərindən biri kimi fəaliyyət göstərmişdir. Açarı Hüseyn müəllimə verib onu ehtiyatlı olmağa dəvət etdim.

Qonşu ölkədən gələn casus qərargah rəisinin iş otağından Naxçıvanın müdafiə planını əldə edə bilsə də, onun şəhərdən çıxarılmasına yol vermədim, sənədi alıb Müdafiə Komitəsinin sədrinə təhvil verdim.

Az keçməmiş xəbər gəldi ki, Ali Məclis Sədrinin birinci müavini yoxa çıxıb. Sədr Rəşid Həsənovun təxribatçılardan azad edilməsi üçün mənə göstəriş verdi. Çətin danışıqlardan sonra onu geri aldım. Bu hal bir neçə dəfə təkrar oldu.

Ermənilərə casusluq edən bir rus zabitini vaxtında ifşa edərək onun İrəvana getməsinin qarşısını aldım. Onu ciddi cəzalandırdıq.

Bizə də edilən təzyiq və təxribatlara baxmayaraq, vəzifəmizin başında ayıq-sayıq dayanmışdıq.

***

Vüqarı Gəncəyə Əbdül Məmmədov aparacaqdı. Lakin müəyyən səbəbdən bir gün sonra o, Gəncəyə getdi. Getməmişdən öncə yarım saatlıq söhbətimiz oldu. İki gün sonra Əbdül geri döndü. Gözlədiyim bir məktubu gətirmişdi. Vüqar ailəsinə qovuşmuşdu. Bundan əvvəl isə Ümummilli Liderin göstərişi ilə goranboylu Ümid kişini erməni əsirliyindən azad etmişdik. Dahi şəxsiyyətin rəhbərliyi ilə həyata keçirilən bu tədbirlər Azərbaycan xalqının qəlbinə xilaskar Heydər Əliyev obrazını əbədilik həkk etdi. Vüqarın ailəsi Əbdül bəyi çox səmimi qarşılamışdı. O, çox sevincli idi. Heç kəsə bəlli deyildi ki, bir neçə aydan sonra Sədərəkdə gedən ağır döyüşlərdə Əbdül Məmmədov onurğa sütunundan güllə yarası alıb ömrünün sonunadək yataq xəstəsi olacaq. Bu da azmış kimi, 2016-cı il Aprel döyüşlərində oğlu mayor Rasim Məmmədov qəhrəmancasına şəhid olacaq. Oğlunun qırxı çıxmamış bu acıya dözməyən ata da dünyasını dəyişəcək. Cəhri kənd qəbiristanlığında iki qəbrin üzərində Azərbaycan bayrağı dalğalanır. Burada qəhrəman ata-oğul uyuyur.

***

...Yenicə işə gəlmişdim. Köməkçim məlumat verdi ki, Gəncədən bir nəfər qəbula gəlmək istəyir. Vüqarın dayısı idi. Nədənsə təşəkkür etmək üçün mənim yanıma gəlmişdi. Minnətdarlığı Ulu Öndər Heydər Əliyevə çatdırmaq üçün onu Ali Məclisə göndərdim. Görüşdən sonra yanıma gəldi. Ümummilli Lider onu çox səmimi qəbul etmişdi. Mənə dedi ki, dostu Gəncə Şəhər Müdafiə Şurasının sədridir. Naxçıvana böyük məmnuniyyətlə müəyyən köməklik edə bilər.

Hazırladığım təklif və planı məruzə etdikdən sonra Ulu Öndər bir günlüyə Gəncəyə getməyimə icazə verdi. 3 gün ərzində mən Gəncədən Naxçıvana hərbi yardım gətirməli idim.

Ozamankı Azərbaycan rəhbərliyinin Naxçıvana münasibəti məlum səbəblərdən ögey idi. Naxçıvan tam blokada vəziyyətində çətin günlərini yaşayırdı. Azərbaycanla əlaqə yalnız hava nəqliyyatı vasitəsilə həyata keçirilirdi. Bütün bunları nəzərə alaraq Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetindən "AZAL"a ünvanlanmış bir məktub aldım. Məktuba yazılmışdı ki, Gəncədən Naxçıvana meyvə-tərəvəz daşımaq üçün bizə bir yük təyyarəsi verilsin. Məktubla Bakı şəhərinə gəldim. "AZAL"ın rəhbərliyinə məktubu verəndə xahiş etdim ki, ekipajın komandiri azərbaycanlı olsun. Xahişim qəbul olundu. AN-26 tipli yük təyyarəsinin komandiri Cavanşir və heyətlə birgə Gəncə aeroportunda yerə endik. Qabaqcadan hazırladığım bir yük maşını aeroporta yaxın, şərtləşdiyimiz yerdə bizi gözləyirdi. Təzəcə təyyarədən enmişdim ki, iki nəfər mülki geyimli şəxs mənə yaxınlaşdı. Bakı ləhcəsində mənimlə rusca danışmağa başladılar. Bakıdan telefonoqram aldıqlarını, Naxçıvana kimə hansı yükün gedəcəyindən xəbərdar olduqlarını bildirdilər. Aeroportun binasını göstərib orada snayper yerləşdirdiklərini, əgər təyyarəyə yük vurularsa, nəinki mənim, hətta ekipaj üzvlərinin həyatlarının təhlükə qarşısında olacağını deyib getdilər. Ekipaj üzvlərinin həyatları ilə risk edə bilməzdim, odur ki, Cavanşirə dedim ki, iki gündən sonra saat $10^{00}$-da Gəncə aeroportunda olsun. Təyyarə Bakıya geri uçdu.

***

Bakıda vəziyyət yenidən gərginləşmişdi. Respublika rəhbərliyinin ciddi səylə gizlətdiyi Xocalı faciəsinin dəhşətləri Azərbaycan xalqını ayağa qaldırmışdı. Ermənilər ruslara məxsus 366-cı alayın köməyi ilə nəinki əsrin, insanlıq tarixinin görünməmiş vəhşiliyini həyata keçirmişdilər. Bu vəhşiliyin içərisində təkcə Xocalını qoruyanlara deyil, mülki şəxslərə, o cümlədən uşaqlara, qadınlara, qocalara qarşı zülm, işgəncə verilməsi, təcavüz edilməsi, hamilə qadınların bətnindəki uşaqların kəsilərək götürülməsi, əsirlərin yandırılaraq, uşaqları böyük borulara yığıb qaynaq edilərək öldürülməsi insanlıq tarixinin ən utancverici səhifəsidir. Xocalı faciəsi axıradək tam tədqiq olunmayıb. Hər bir sakinin həyatı bir dram, faciə əsəridir. Hələ nə qədər itkin, əsir düşənlərimiz var. Məhz 44 günlük Vətən müharibəsində Azərbaycan əsgəri döyüş meydanında Xocalının qisasını aldı, amma ermənilərdən fərqli olaraq müharibə dövründə mülki obyektləri hədəf almadı, erməni qadınına, uşağına toxunmadı, öz adına yaraşanı etdi. Nəinki bu müharibədə, 2016-cı ilin Aprel döyüşlərində də, Həsənqaya əməliyyatında da ordumuz Mübariz kimi oğulları ilə düşmənə layiq olduğu cavabı verdi.

*(ardı var)*

**Urfullah QURBANOV**
***Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin Əks-kəşfiyyat şöbəsinin sabiq rəisi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin səlahiyyətli hərbi nümayəndəsi***

*Qadınlar nə qədər incə, zərif, həssas olsalar da, həyatın çətinlikləri qarşısında heç vaxt yenilməyib, ruhdan düşməyib, əzmlə çalışıb. Övlad böyütmək, ailəyə maddi cəhətdən köməklik göstərmək, məşğulluğunu təmin etmək üçün müxtəlif sahələrdə çalışan zəhmətkeş qadınlarımız var. Vətən üçün canını fəda edən oğullar böyüdən şəhid analarımız, şəhid yoldaşlarının yolunu gözləyən bacılarımız vardır. Biz onları unutmadıq. Gəlin muxtar respublikada yaşayan belə qadınları yaxından tanıyaq.*

# Fədakar, zəhmətkeş, cəsur Azərbaycan qadını, bayramın mübarək!

Şəhid əsgər Sərxan Salahovun anası ***Müşkünaz Salahova*** ilə həmsöhbət olduq. Onun dediklərindən: – Oğlum Sərxan Salahov 1 mart 1991-ci ildə anadan olub, Ələkli kənd tam orta məktəbində təhsil alıb. İki bacının bir qardaşı olan Sərxan uşaqlıqdan bəri mərd, vətənpərvər, cəsarətli idi. O, ailəsini də, Vətənini də canından artıq sevirdi. Sərxan müddətdən artıq hərbi xidmət hərbi qulluqçusu kimi Vətənə xidmət edirdi. Kursunun bitməyinə az qalmışdı ki, 44 günlük Vətən müharibəsi minlərlə Vətən övladı kimi Sərxanın da torpaq təəssübkeşliyini, millət sevgisini, düşmənə nifrət hissini daha da alovlandırdı. Sərxan könüllü olaraq döyüşə getdi və ata-baba torpaqlarımızın geri alınması uğrunda gedən döyüşlərdə canı-qanı bahasına vuruşaraq qəhrəmancasına şəhid oldu. Qismətində şəhidlik məqamına yüksəlmək var imiş. “Sənin başını hər yerdə ucaldacam”, – deyirdi. Başım ucadır, Vətən sağ olsun! Dövlət hər zaman qayğımıza qalır. Övladım Prezident cənab İlham Əliyevin sərəncamları ilə müharibədə göstərdiyi şücaətlərə görə “Vətən uğrunda”, “Füzulinin azadlığı uğrunda”, “Xocavəndin azadlığı uğrunda” medalları ilə təltif olunub. Oğlumdan geriyə qəhrəmanlığı və iki qız övladı qalıb. Sərxan mənə elə vəfalı, qədirbilən oğul olub ki, mən ömürboyu onun xoş xatirələri ilə ovunacağam. O, müqəddəs şəhidlik məqamı ilə elimizə, obamıza şərəf gətirdi və öz arzusuna çatdı. Torpaqlarımız Sərxan kimi mərd, igid, Vətənini könüldən sevən oğulların sayəsində azadlığına qovuşdu. Bütün şəhidlərimizə Allah rəhmət eləsin.

***Billur Vəliyeva*** 8 Mart ərəfəsində gözü yolda, qulağı səsdə olan xanımlarımızdandır, şəhid leytenant İbrahim Vəlizadənin həyat yoldaşıdır. Qürurla “Mən qəhrəman İbrahimin həyat yoldaşıyam”, – deyən şəhid xanımı İbrahim Vəlizadə şəhid olduqdan sonra onun doğulub, boya-başa çatdığı evdən bir gün də ayrı qalmayıb, gözünün ağı-qarası oğlunu o evdən əskik etməyib. Billur xanım deyir: – 1 il 10 ay evliliyimiz müddətində cəmi 1 ay birlikdə ola bildik. Elə bir gün olmaz ki, onunla olan xatirələri xatırlayıb, onu yad etməyim. Həmin günlər mənim həyatımın ən gözəl günləri olub. Bəzən kənardan uzun illər evli olan ailələri müşahidə edirəm, düşünürəm ki, on illərə bərabər ailələr belə mənim bir ayda gördüyüm diqqəti, qayğını, sevgini görməyib. O qədər düşüncəli, sevgi dolu, qayğıkeş, mehriban insan idi ki… Mən fəxr edirəm ki, İbrahim kimi bir igidin həyat yoldaşıyam və qürur duyuram ki, bu gün mənə əmanət etdiyi özü kimi bir oğlu var. Son nəfəsimə qədər onun mənə qoyduğu bu uca adı – “Şəhid xanımı” adını qoruyub saxlayacağam. Həyatdakı tək arzum övladımız Fəridi sağlam, atası kimi igid, qorxmaz, Vətənə, atasının adına layiq böyütməkdir. Mən bu həyatdakı bütün uğurlarımı həyat yoldaşıma borcluyam. Hazırda Naxçıvan Dövlət Universitetində qiyabi təhsil alıram. Maliyyə Nazirliyində işləyirəm. Öhdəliyimə düşən işi canla-başla yerinə yetirməyə, əlimdən gəldiyinin daha artığını etməyə çalışıram ki, kimsə düşünməsin ki, şəhid xanımıdır deyə mənə güzəşt edilir. Hər yerdə, hər zaman onun adını qorumağı özümə borc bilir, uca tuturam.



Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin direktoru ***Minurə Musayeva*** deyir: – Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzi 10 ildən artıqdır ki, fəaliyyət göstərir. Əsas fəaliyyət istiqaməti sosial reabilitasiya olan mərkəzdə sağlamlıq imkanlarının məhdudluğu müəyyən edilmiş şəxslərə istər psixoloji, istərsə də sosial bacarıqların formalaşması və inkişafı baxımından köməklik göstərilir. Bu zaman onlara fərdi yanaşma tətbiq olunur. Mərkəzə müraciət edən sağlamlıq imkanlarının məhdudluğu müəyyən edilmiş şəxslər arasında qızlarımız da az deyil. Onlar burada fəaliyyət göstərən bütün bölmələrin xidmətindən istifadə edirlər. Onların fiziki imkanları məhdud olsa da, hər biri gələcəkdə gözəl Azərbaycan xanımı, gözəl ana, həm də xüsusi istedadı olan bacarıqlı qadınlardır. Mərkəzimizin bölmələrinə cəlb edilənlər arasında xüsusi istedada malik olan və mərkəzdə müəyyən bacarıqlara yiyələnən qızlarımız vardır. Mərkəzin Əmək terapiyası bölməsində uşaqlara, xüsusən də qızlara toxuma, tikmə və əl işləri bacarıqları aşılanır ki, bu da onların peşə istiqaməti seçmələrində əvəzsiz rol oynayır. Əmək terapiyasında müəyyən bacarıqlara yiyələnən qızların əl işləri dəfələrlə muxtar respublikada təşkil edilən sərgilərdə nümayiş olunub. Sərgilədikləri əl işlərinə görə diplom və fəxri fərmanlara layiq görülmüş qızlarımız vardır ki, əl işlərinə verilən dəyər onlarda ruh yüksəkliyi yaradır və bu yolda daha da əzmkarlıqla çalışmalarına imkan verir. Həmçinin əl işlərinin satışı da təşkil olunur ki, əldə olunmuş maddi qazanc onların maddi rifah hallarının qismən də olsa, yaxşılaşmasına səbəb olur. Burada qazanılan bacarıqlar Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə keçirilən tədbirlərdə nümayiş etdirilir.



Bu gün müxtəlif peşələrlə məşğul olan qadınlarımız çoxdur. 25 ildir, dərzi kimi fəaliyyət göstərən ***Səlbi İsgəndərova*** əməkçi qadınlarımızdan biridir. O, 1966-cı il avqustun 20-də Babək rayonunun Şıxmahmud kəndində doğulub. Onunla söhbətimiz zamanı dedi: – Məktəbi bitirəndən dərzilik peşəsinə maraq salmışam. Düşünürəm ki, bu gün hər bir qadın üçün hansısa peşəyə yiyələnmək vacibdir. Bu təkcə maddi vəziyyəti yaxşılaşdırmaq üçün yox, həm də vaxtdan səmərəli istifadə, bacarıqları inkişaf etdirmək baxımından da əhəmiyyətlidir. Dərzilik peşəsinə olan həvəsim məni 1984-85-ci illərdə Naxçıvan şəhər 163 nömrəli Peşə Məktəbində oxumağa vadar etdi. Burada təcrübə keçdikdən sonra Naxçıvan Tikiş Fabrikində dərzi kimi fəaliyyət göstərməyə başladım. Orada kişi köynəkləri tikirdik ki, bu da Naxçıvanda bu geyimə olan tələbatı ödəyirdi. Sonra korporativ tikiş sexində fəhlə paltarları tikmişəm. 1990-93-cü illərdə Naxçıvan şəhərində yerləşən xalçaçılıq fabrikində xalça toxumaq üçün vacib olan ipləri əyirməklə məşğul olmuş, bir müddət hərbi şəhərcikdə torpaqlarımızı qoruyan Vətən oğulları üçün hərbi formalar hazırlamışam. Artıq 13 ildir ki, Naxçıvan şəhərindəki “Bellissa” Məhdud Məsuliyyətli Cəmiyyətinin Mebel Fabrikində dərzi kimi fəaliyyətimi davam etdirirəm. Bu işin əsasında qabiliyyət, səbir və əzmlə çalışmaq dayanır. Ustalarımın mənə olan inamı sayəsində gördüyüm bütün işləri layiqincə ortaya çıxara bilmişəm. Bir də ki hər hansı peşə ilə məşğul olmaq üçün əvvəlcə onu sevməlisən. Mən sevdiyim işi görürəm və xüsusi tikiş məharəti tələb edən bu sahə ilə məşğulluğumu təmin edirəm. 2017-ci ildə səmərəli fəaliyyətimə görə çalışdığım yerin rəhbərliyi tərəfindən sertifikatla da təltif olunmuşam. Hazırda Türkiyədə baş verən zəlzələdən zərərçəkmiş insanlar üçün çadırlar tikib hazırlayır, onlara əlimizdən gələn dəstəyi göstərməyə çalışırıq.



Xüsusi əl qabiliyyətinə malik xanımlarımız var ki, onlar isti geyimlər, daha dəqiq desək, yun jilet, şərf və corab toxumaqla Vətənin keşiyində dayanan əsgərlərə könüllü xidmət göstərirlər. Onlardan biri də ***Elnurə Nağıyeva****dır*.



Babək şəhər sakini 45 yaşlı bu xanım uşaqlıqdan böyük maraq və sevgi ilə bağlı olduğu bu işdə rəngarəng saplar, muncuqlar, piləklərlə əl işləri hazırlayıb. Müsahibim dedi: “Toxuculuq incə işdir. Diqqət, zaman və səbir tələb edir, xüsusilə də sevgi. Özüm ev xanımıyam. Bu səbəbdən əl işlərimin daha keyfiyyətli olması üçün kifayət qədər zaman ayıra bilirəm. Artıq 7 ildir ki, toxuculuqla fəal məşğul oluram. Ötən il hərbi hissələrə göndərmək üçün müxtəlif ölçülərdə 35 cüt corab, 16 jilet, 30 şərf və 40 boyunluq hazırlamışam. Bütün bu geyimləri toxuyarkən böyük qürur hissi keçirirəm. Düşünürəm ki, sərt şaxtalı qış aylarında dağlıq ərazilərdə Vətənimizi qoruyan, bizlər üçün fədakarlıqla xidmət edən igid oğullarımıza az da olsa, faydam toxunur. Övladlarımdan biri hərbi liseydə təhsil alır. Toxuyarkən bir ana kimi kövrək hisslər keçirirəm. Övladlarımızı, eyni zamanda biz daim dövlətin diqqət və qayğısı ilə əhatə olunmuşuq. Mən fəaliyyətimə görə “Tərəqqi” medalı ilə təltif olunmuşam. Hazırladığım geyimlərin, əl işlərinin yüksək qiymətləndirilməsi, keçirilən sərgilərdə nümayiş olunması mənə böyük stimuldur. Bu gün bizə bu şəraiti yaradan dövlətimizə minnətdarlığımı bildirirəm”.

Ümummilli Lider Heydər Əliyev demişdir: ***“Azərbaycan qadını tarixboyu öz ağlı, zəkası, namusu, qeyrəti, isməti ilə, fədakarlığı, çalışqanlığı, mərdliyi, vətənpərvərliyi ilə, millətinə, torpağına olan hədsiz məhəbbəti ilə və gözəlliyi, Azərbaycan xalqının xüsusiyyətləri ilə tanınmışdır. Ancaq bununla bərabər, əsrlərboyu Azərbaycan qadınının üzərinə böyük zəhmət düşmüşdür. O zəhməti də qadın həmişə mərdliklə, cəsarətlə çəkmişdir və heç vaxt bu zəhmətdən inciməmişdir”.*** 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə bütün zəhmətkeş qadınları təbrik edir, onlara xoşbəxtlik, ailə səadəti, cansağlığı arzulayırıq.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**
**✍ Gülcamal TAHİROVA**
**✍ Aytac CƏFƏRLİ**
**✍ Bülbül QULİYEVA**
**✍ Aysel YUSİFZADƏ**

## Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş könüllü ağacəkmə aksiyası keçiriləcək

Naxçıvan Muxtar Respublikasında 11 mart 2023-cü il tarixdə Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş könüllü ağacəkmə aksiyası həyata keçiriləcəkdir.



Əkiləcək müxtəlif növ tinglərin 18 min ədədi “Naxçıvan Yaşıllaşdırma Xidməti” publik hüquqi şəxs, 22 min ədədi isə Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tingçilik təsərrüfatları tərəfindən yetişdirilmişdir. Könüllü aksiya zamanı, ümumilikdə, 40 min ədəd tingin Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində olan qurumların, muxtar respublikanın dövlət orqanları və digər təşkilatların iştirakı ilə əkilməsi nəzərdə tutulur.

***Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti***

## Naxçıvanda Novruz yarmarkası təşkil ediləcək

Novruz bayramı ərəfəsində Naxçıvanda bayram yarmarkası təşkil olunacaq. Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, Naxçıvan şəhəri, Xətai küçəsində yerləşən Mərkəzi Bazarda baş tutacaq yarmarka martın 13-dən 19-dək davam edəcək.



Yarmarkada məhsullar bazar qiymətlərindən daha sərfəli qiymətlərlə alıcılara təklif ediləcək. Satışa çıxarılan məhsulların keyfiyyətinə nəzarət etmək məqsədilə yarmarkada “İstehlak Mallarının Ekspertizası Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinin səyyari laboratoriyası da fəaliyyət göstərəcək.

Yarmarkanın təşkilində əsas məqsəd bayram günlərində əhalinin kənd təsərrüfatı məhsullarına artan tələbatlarını yerli və sağlam məhsullarla qarşılamaq, kənd təsərrüfatçıları üçün alternativ satış kanalı təşkil etməkdir.

Muxtar respublika sakinlərini bayram yarmarkasına dəvət edirik.

**Xəbərlər şöbəsi**

## Qadınlar gününə həsr olunmuş rəsm sərgisi

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin təşkilatçılığı ilə açıq səma altında 8 Mart – Beynəlxalq Qadınlar Gününə həsr olunmuş “Qadınlar və güllər” mövzusunda rəsm sərgisi təşkil olunub.



Tədbirdə Birliyin üzvü, sənətşünas Nizami Alıyev çıxış edərək tariximizin hər dönəmində Azərbaycan qadınının müdrikliyi, cəfakeşliyi və qəhrəmanlığından söz açıb. Milli mənəvi dəyərlərimizin formalaşması, o cümlədən qorunub yaşadılmasında qadınlarımızın misilsiz xidmətlərinin olduğunu vurğulayıb.

Qeyd olunub ki, Azərbaycan qadınlarının zəhmətkeşliyi, ictimai həyatda rolu rəssamlarımızın daim ilham mənbəyi olub. Elə bu sərgidə də nümayiş etdirilən rəsm əsərlərində qadınlarımızın rəngarəng dünyası öz əksini tapıb.

Tədbirdə çıxış edən rəssamlardan Həmzə Sadiqov, Qəhrəman Tağıyev, Ələsgər Ələsgərov və digərləri bayram münasibətilə qadınları təbrik edib, onlara xoş arzularını çatdırıblar.

Sonra tədbir iştirakçıları sərgidə nümayiş etdirilən rəsm əsərləri ilə tanış olublar.

Qeyd edək ki, sərgidə 18 rəssamın 40-a yaxın əsəri nümayiş etdirilir.

**Aidə İBRAHİMOVA**

### *İtmişdir*

Məhərrəmli Rəcəb Hüseyn oğlunun adına olan 0800144572 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

***

MH-0027231 nömrəli çıxarış və qeyri-yaşayış sahələrinə aid 153 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Zeynəddin kənd sakini Allahyarova Səmayə Hacı qızının adına olan JN-554 inventar nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Zeynəddin kəndində yaşamış Allahyarova Zeynəb Abbas qızının adına olan JN-553 inventar nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Zeynəddin kənd sakini Allahyarov Təyyar Hacı oğlunun adına verilmiş JN-555 inventar nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, 8-ci küçə, döngə 1, ev 10 ünvanda Babayev Ramiz Ələsgər oğlunun adına olan 1701 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Külüs kəndində yaşayan Məmmədov Bəsir Bayram oğlunun adına verilmiş JN-195A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şahbuz şəhərində yaşayan Qoçəliyev Hüseyn Əmrah oğlunun adına verilmiş 208 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 180